# Apple Məxfilik Siyasəti

## Apple-ın Məxfilik Siyasəti Apple-ın şəxsi məlumatlarınızı necə topladığını, istifadə etdiyini və paylaşdığını təsvir edir.

31 mart 2024-cü il tarixində yenilənib



Bu Məxfilik Siyasətinə əlavə olaraq, şəxsi məlumatlarınızın istifadəsini tələb edən məhsullarımızda və müəyyən xüsusiyyətlərdə verilənlər və məxfilik üzrə məlumatlar təmin edirik. Məhsula aid bu məlumatlar Verilənlər və Məxfilik İşarəsi ilə müşayiət olunur.

Bu funksiyaları istifadə etməzdən əvvəl bu məhsula aid məlumatları nəzərdən keçirmənizə imkan veriləcək. Bu məlumatlara həmçinin həmin xüsusiyyətlərlə bağlı Parametrlərdə və/və ya apple.com/legal/privacy ünvanında onlayn baxa bilərsiniz.

Aşağıdakı başlıqlar vasitəsilə keçid edə biləcəyiniz məxfilik təcrübələrimizlə tanış olmaq üçün bir az vaxtınızı ayırın və sualınız olarsa bizimlə əlaqə saxlayın.

Apple Vəziyyəti Araşdırma Proqramları üzrə Məxfilik Siyasəti

Apple-da Şəxsi Məlumatlar nədir?
Apple-da Məxfilik Hüquqlarınız
Apple-ın Sizdən Topladığı Şəxsi Məlumatlar
Apple-ın Digər Mənbələrdən Aldığı Şəxsi Məlumatlar
Apple-ın Şəxsi Məlumatlardan İstifadəsi
Apple-ın Şəxsi Məlumatları Paylaşması
Apple-da Şəxsi Məlumatların Qorunması
Uşaqlar və Şəxsi Məlumatlar
Kukilər və digər texnologiyalar
Şəxsi Məlumatların Ölkələr Arasında Ötürülməsi
Sizin məxfiliyinizə dair şirkətdaxili öhdəliyimiz
Məxfiliyə dair suallar

## Apple-da Şəxsi Məlumatlar nədir?

Apple şirkəti olaraq, təməl məxfilik hüquqlarına inanır və bu təməl hüquqların dünyanın istənilən yerində dəyişməz olaraq qalmalı olduğunu düşünürük. **Məhz bu səbəbdən, şəxsin yaşadığı yerdən asılı olmayaraq, müəyyən edilmiş və ya müəyyən edilə bilən bir şəxslə əlaqəli olan və ya Apple tərəfindən həmin şəxslə əlaqələndirilmiş və ya əlaqələndirilə bilən hər hansı bir məlumatı "şəxsi məlumat" kimi qəbul edirik.** Yəni, adınız kimi sizi birbaşa müəyyən etməyə imkan verən məlumatlar, eləcə də cihazınızın seriya nömrəsi kimi sizi birbaşa deyil, dolayı yolla müəyyən etmək üçün istifadə oluna bilən məlumatlar şəxsi məlumatlar sayılır. Toplanmış məlumatlar bu Məxfilik Siyasətində nəzərdə tutulan məqsədlər üçün şəxsi olmayan məlumatlar sayılır.

Bu Məxfilik Siyasəti Apple və ya Apple-a aid şirkətin (birlikdə "Apple") bizimlə veb-saytlarımızda, Apple proqramları (məsələn, Apple Music və ya Wallet) vasitəsilə və ya şəxsən (o cümlədən telefonla və ya Apple Store-a gəldikdə) əlaqə saxlamağınızdan asılı olmayaraq şəxsi məlumatları necə idarə etdiyini əhatə edir. Apple, həmçinin xidmətlərimizdə üçüncü tərəflərlə əlaqə qura və ya App Store-da üçüncü tərəf proqramlarını endirmək üçün təmin edə bilər. Apple-ın Məxfilik Siyasəti üçüncü tərəflərin şəxsi məlumatları necə təyin etməsinə və ya necə istifadə etməsinə şamil edilmir. Onlarla əlaqə qurmazdan əvvəl onların məxfilik siyasətlərini oxumanızı və öz məxfilik hüquqlarınızı bilməyinizi tövsiyə edirik.

## Apple-da Məxfilik Hüquqlarınız

Apple olaraq, şəxsi məlumatlarınızı bilmə, giriş etmə, düzəltmə, ötürmə, emalını məhdudlaşdırma və silmə imkanınıza hörmət edirik. Bu hüquqları qlobal müştəri bazamız üçün təmin etmişik və bu məxfilik hüquqlarından istifadə etməyi seçsəniz, sizə qarşı ayrı-seçkilik edilməməsi və ya Apple tərəfindən daha az xidmət göstərilməməsi hüququnuz var. Şəxsi məlumatlarınızın Apple tərəfindən emalına razılıq verməyiniz tələb olunduqda, istənilən vaxt razılığınızı geri götürmək hüququnuz var.

**Üçüncü tərəf xidmət təminatçısının Apple adından çıxış etdiyi hallar da daxil olmaqla məxfilik hüquqlarınızı və seçimlərinizi həyata keçirmək üçün Apple üçün privacy.apple.com və ya Shazam üçün shazam.com/privacy ünvanında Apple Verilənlər və Məxfilik səhifəsinə baş çəkin.** Şəxsi məlumatlarınızın təhlükəsizliyini qorumağa kömək etmək üçün hesabınıza daxil olmalısınız və kimliyiniz doğrulanmalıdır. Hazırda privacy.apple.com saytında mövcud olmayan şəxsi məlumatların surətini əldə etmək istəyirsinizsə, apple.com/legal/privacy/contact ünvanında sorğu verə bilərsiniz. Sizin həmçinin müvafiq tənzimləyiciyə şikayət etmək hüququnuz var.

Tələbinizi təmin edə bilməyəcəyimiz vəziyyətlər ola bilər – məsələn, tranzaksiya məlumatlarınızı silməyimizi istəsəniz və Apple qanunun tələbinə uyğun olaraq bu əməliyyatın qeydini aparmaq məcburiyyətində olarsa, bu məlumatı silə bilmərik. Bununla yanaşı, təhlükəsizliklə əlaqəli araşdırılan bir hesabın silinməsini tələb etdiyiniz hallar kimi saxtakarlığın qarşısını almaq və təhlükəsizlik məqsədləri üçün məlumatların qanuni istifadəmizə xələl gətirəcəyi hallarda tələbi təmin etməkdən imtina edə bilərik. Məxfilik sorğunuzun rədd edilməsinin digər səbəbləri, başqalarının məxfiliyini təhlükə altına atması, qeyri-ciddi və ya bezdirici olması və ya son dərəcə praktiki olmaması və ya əsassız olmasıdır.

*Kaliforniyada yaşayırsınızsa, Apple Məlumat və Məxfilik səhifəsinə giriş edə bilmirsinizsə,* siz və ya səlahiyyətli nümayəndəniz apple.com/legal/privacy/contact ünvanında və ya 1-800-275-2273 nömrəsinə zəng edərək tələb irəli sürə bilərsiniz.

Hüquqlarınızı həyata keçirmək haqqında ətraflı məlumat üçün support.apple.com/102283 ünvanına baş çəkin.

## Apple-ın Sizdən Topladığı Şəxsi Məlumatlar

Apple olaraq inanırıq ki, əla məhsullara və güclü məxfiliyə sahib ola bilərsiniz. Yəni, **yalnız ehtiyacımız olan şəxsi məlumatları toplamağa çalışırıq**. Apple-ın topladığı şəxsi məlumatlar Apple ilə necə əlaqə qurmağınızdan asılıdır. Apple-ın müəyyən fərdi xidmətlər üçün şəxsi məlumatları necə idarə etdiyinə dair təsvirlər apple.com/legal/privacy/data ünvanında verilmişdir.

Apple ID yaratdığınız, kommersiya krediti üçün müraciət etdiyiniz, məhsul və ya cihaz satın aldığınız və/və ya aktivləşdirdiyiniz, proqram təminatı yeniləməsini endirdiyiniz, Apple Store-da dərəcə üçün qeydiyyatdan keçdiyiniz, xidmətlərimizə qoşulduğunuz, bizimlə əlaqə saxladığınız (həmçinin sosial media vasitəsilə), onlayn sorğuda iştirak etdiyiniz və ya Apple ilə başqa şəkildə əlaqə qurduğunuz zaman aşağıdakılar da daxil olmaqla müxtəlif məlumatları toplaya bilərik:

- **Hesab Məlumatı.** Apple ID-niz və e-poçt ünvanı, qeydiyyata alınmış cihazlar, hesab statusu və yaş daxil olmaqla əlaqədar hesab detallarınız
- **Cihaz Məlumatı.** Cihazınızın müəyyən edilə biləcəyi məlumatlar, məsələn cihazın seriya nömrəsi və ya brauzer növü kimi cihazınız haqqında məlumatlar
- **Əlaqə Məlumatı.** Ad, e-poçt ünvanı, fiziki ünvan, telefon nömrəsi və ya digər əlaqə məlumatları kimi məlumatlar
- **Ödəniş Məlumatı.** Bank məlumatları, kredit, debet və ya digər ödəniş kartı məlumatları kimi faktura ünvanınız və ödəmə metodunuz haqqında məlumatlar
- **Əməliyyat Məlumatı.** Apple məhsullarının və xidmətlərinin alışı və ya Apple platformalarında aparılan alışlar da daxil olmaqla Apple tərəfindən dəstəklənən əməliyyatlar haqqında məlumatlar
- **Saxtakarlığın Qarşısının Alınması Məlumatı.** Cihazın etibarlılıq xalı da daxil olmaqla saxtakarlığı müəyyənləşdirmək və qarşısını almaq üçün istifadə edilən məlumatlar
- **İstifadə Məlumatları.** Təkliflərimizlə bağlı fəaliyyətiniz və onlardan istifadəniz haqqında məlumatlar, məsələn, baxış tarixçəsi daxil olmaqla xidmətlərimizdəki proqram başladılmaları; axtarış tarixçəsi; məhsul istifadəsi; qəza məlumatları, performans və digər diaqnostik məlumatlar; və digər istifadə məlumatları
- **Məkan Məlumatı**. Yalnız Tap kimi xidmətləri dəstəkləmək üçün və ya regiona aid xidmətlər üçün razılaşdığınız yerdə dəqiq məkan
- **Sağlamlıq Məlumatı.** Fiziki və ya əqli sağlamlığı və ya vəziyyəti ilə əlaqəli məlumatlar daxil olmaqla bir insanın sağlamlıq vəziyyəti ilə əlaqəli məlumatlar. Şəxsi sağlamlıq məlumatlarına həmçinin bir insanın sağlamlıq vəziyyəti ilə əlaqədar nəticələr çıxarmaq və ya vəziyyəti aşkarlamaq üçün istifadə edilə bilən

məlumatlar da daxildir. Apple Vəziyyəti Araşdırma proqramından istifadə edərək tədqiqatda iştirak edirsinizsə, şəxsi məlumatlarınızın məxfiliyini tənzimləyən siyasət Apple Vəziyyəti Araşdırma Proqramları üzrə Məxfilik Siyasəti bölməsində təsvir edilmişdir.

- **Fitnes Məlumatı.** Paylaşmağı seçdiyiniz yerdə fitnes və məşq məlumatlarınızla əlaqəli təfərrüatlar
- **Maliyyə Məlumatı.** Toplanan əmək haqqı, gəlir və aktivlər barədə məlumatlar və Apple markalı maliyyə təklifləri ilə əlaqəli məlumatlar
- **Hökumət ID-si Məlumatları.** Müəyyən qanunvericiliklərdə simsiz hesab quraşdıran və cihazınızı aktivləşdirən zaman kommersiya kreditinin vaxtını uzatmaq, rezervasiyaları idarə etmək məqsədləri üçün və ya qanunla tələb olunarsa, bəzi məhdud şəraitlərdə sizdən hökümət tərəfindən verilən ID-ni soruşa bilərik
- **Bizə Təqdim Etdiyiniz Digər Məlumatlar.** Müştəri dəstəyi ilə əlaqə və sosial media kanalları vasitəsilə əlaqə daxil olmaqla Apple ilə ünsiyyətinizin məzmunu kimi təfərrüatlar

Tələb etdiyimiz şəxsi məlumatları təqdim etməyiniz tələb olunmur. Lakin bunu etməməyi seçsəniz, bir çox hallarda sizə məhsul və ya xidmətlərimizi təqdim edə və ya sorğularınızı cavablandıra bilməyəcəyik.

## Apple-ın Digər Mənbələrdən Aldığı Şəxsi Məlumatlar

Apple sizin haqqınızda şəxsi məlumatları digər **şəxslərdən**, sizin göstərişinizlə **fəaliyyət göstərən müəssisələrdən və ya üçüncü şəxslərdən**, məhsul və xidmətlərimizi təmin etmək üçün bizimlə işləyən və təhlükəsizlik və fırıldaqçılığın qarşısının alınmasında bizə yardım edən **tərəfdaşlarımızdan** və digər qanuni mənbələrdən ala bilər.

- **Şəxslər.** Apple sizə bir məhsul və ya hədiyyə kartı göndərmiş, sizi Apple xidmətində və ya forumunda iştirak etməyə dəvət etmiş və ya sizinlə məzmun paylaşmış başqa şəxslərdən sizin haqqınızda məlumatlar toplaya bilər.
- **Sizin Göstərişiniz.** Başqa şəxslərə və ya üçüncü tərəflərə Apple ilə məlumat paylaşması üçün göstəriş verə bilərsiniz. Məsələn, mobil operatorunuza hesabın aktivləşdirilməsi üçün operator hesabınızla bağlı məlumatları Apple ilə paylaşması üçün və ya loyallıq proqramınızda Apple satınalmalarına görə mükafat qazana bilmək üçün iştirakınız haqqında məlumatları paylaşılması üçün göstəriş verə bilərsiniz.
- **Apple Tərəfdaşları.** Biz, həmçinin təmin etdiyiniz məlumatları təhlükəsizlik və saxtakarlığın qarşısının alınması məqsədləri üçün üçüncü tərəflə Apple ID yaradılan zaman yoxlaya bilərik.

Tədqiqat və təkmilləşdirmə məqsədləri ilə müəyyən edilə bilən şəxslə əlaqələndirilə bilən şəkillər, səslər və ya digər verilənlər kimi məlumat dəstlərindən istifadə edə bilərik. Biz bu cür məlumat dəstlərini müvafiq qanunlara, eləcə də onların yerləşdiyi yurisdiksiyanın qanunlarına əsasən əldə edirik. Tədqiqat və təkmilləşdirmə məqsədləri ilə bu cür məlumat dəstlərini istifadə edərkən biz orada ola biləcək şəxslərin kimliyini təkrar müəyyən etməyə cəhd etmirik.

## Apple-ın Şəxsi Məlumatlardan İstifadəsi

**Apple xidmətlərimizi dəstəkləmək, əməliyyatlarınızı emal etmək, sizinlə əlaqə saxlamaq, təhlükəsizlik və saxtakarlığın qarşısının alınması və qanunlara riayət etmək üçün şəxsi məlumatları istifadə edir. Şəxsi məlumatlarınızı sizin razılığınızla başqa məqsədlər üçün də istifadə edə bilərik.**

**Apple şəxsi məlumatlarınızı yalnız bunun üçün etibarlı bir qanuni əsas olduğu zaman istifadə edir.** Vəziyyətdən asılı olaraq, Apple sizinlə bağlanmış müqaviləni yerinə yetirmək, vacib maraqlarınızı və ya digər şəxslərin maraqlarını qorumaq və ya qanuna riayət etmək üçün sizin razılığınıza və ya emalın zəruri olması

faktına əsaslana bilər. Şəxsi məlumatlarınızı, həmçinin maraqlarınız, hüquqlarınız və gözləntilərinizi nəzərə alaraq özümüzün və ya başqalarının qanuni maraqlarına uyğun olduğuna inandığımız yerdə emal edə bilərik. Ətraflı məlumatı yuxarıda təsvir olunduğu kimi məhsullarımıza və xüsusiyyətlərimizə daxil edilmiş məhsula aid məlumatda əldə etmək olar. Hüquqi əsaslarla bağlı suallarınız varsa, apple.com/legal/privacy/contact ünvanına keçərək Məlumatların Mühafizəsi Əməkdaşı ilə əlaqə saxlaya bilərsiniz.

- **Xidmətlərimizin Dəstəklənməsi.** Apple, xidmətlərimizi dəstəkləmək üçün lazım olan şəxsi məlumatları toplayır. Bu məlumatlara təkliflərimizi yaxşılaşdırmaq, audit və ya məlumat təhlili kimi daxili məqsədlər və ya problemi həll etmək üçün toplanan şəxsi məlumatlar daxil ola bilər. Məsələn, Apple Music abunəliyi ilə mahnı səsləndirmək istəsəniz, sizə tələb olunan məzmunu təqdim etmək və royalti məqsədləri üçün hansı mahnıları səsləndirdiyiniz barədə məlumat toplayırıq.
- **Əməliyyatlarınızın Emalı.** Əməliyyatları emal etmək üçün Apple adınız, satınalma və ödəniş kimi məlumatları toplamalıdır.
- **Sizinlə Əlaqə Saxlamaq.** Müraciətlərinizə cavab vermək, əməliyyatlarınız və ya hesabınızla bağlı sizinlə əlaqə saxlamaq, məhsul və xidmətlərimizin marketinqini həyata keçirmək, digər müvafiq məlumatları təmin etmək və ya məlumat tələb etmək və ya rəy bildirmək. Biz satınalmalar haqqında xəbərlər, qayda və şərtlərimizə, siyasətimizə etdiyimiz dəyişikliklər kimi mühüm bildirişləri göndərmək üçün vaxtaşırı olaraq sizin şəxsi məlumatınızdan istifadə edə bilərik. Bu məlumatlar Apple ilə qarşılıqlı əlaqəniz üçün vacib olduğuna görə, bu vacib bildirişlərin qəbulundan imtina etməməli ola bilərsiniz.
- **Təhlükəsizlik və Saxtakarlığın Qarşısının Alınması.** Şəxsləri, işçiləri və Apple-ı qorumaq, zərərin və saxtakarlığın qarşısını almaq, o cümlədən şəxsləri, işçiləri və Apple-ı bütün istifadəçilərimizin xeyri üçün qorumaq, yüklənmiş məzmunların arasında uşaqların cinsi istismarı materialı daxil olmaqla, qeyri-qanuni məzmunun olub-olmadığını əvvəlcədən yoxlamaq və skan etmək.
- **Fərdiləşdirmə üçün İstifadə Olunan Şəxsi Məlumatlar.** Bu cür seçimlərin əlçatan olduğu yerdə xidmətlərinizi və ya kommunikasiyalarınızı fərdiləşdirməyi seçsəniz, Apple sizə bu fərdiləşdirilmiş xidmətləri və ya kommunikasiyaları təqdim edə bilmək üçün topladığımız məlumatlardan istifadə edəcək. Şəxsi məlumatlarınızdan istifadə etməyi tələb edən xidmətdən ilk istifadə etdiyiniz zaman təqdim olunan məxfilik məlumatlarını nəzərdən keçirərək müvafiq xidmətlərin təcrübənizi fərdiləşdirmək üçün məlumatlardan necə istifadə etdiyini öyrənə bilərsiniz. Biz bu məlumatı Məlumat və Məxfilik ikonamızla təqdim etməklə onun tapılmasını asanlaşdırırıq; həm də hər zaman Apple cihazınızda və onlayn olaraq apple.com/legal/privacy/data ünvanında əlçatandır.
- **Qanuna Riayət Etmək.** Mövcud qanunvericiliyə riayət etmək — məsələn, vergi və ya hesabat öhdəliklərini yerinə yetirmək və ya qanuni dövlət tələbini yerinə yetirmək.

Apple, insan tərəfindən nəzərdən keçirmə imkanı olmadan sizə əhəmiyyətli dərəcədə təsir edəcək bir qərar vermək üçün alqoritmlərdən və ya profilləşdirmədən istifadə etmir. Apple həmçinin Kaliforniya qanunlarına uyğun olaraq istifadəçinin emalı məhdudlaşdırmaq hüququndan istifadə etməsini tələb edən hər hansı məqsədlər üçün həssas şəxsi məlumatlardan istifadə etmir və ya açıqlamır.

**Apple şəxsi məlumatları yalnız toplandığı məqsədləri yerinə yetirmək, eləcə də bu Məxfilik Siyasətində və ya xidmətə məxsus məxfilik bildirişlərimizdə təsvir olunan qaydada və ya qanunla tələb olunduğu kimi emal etmək üçün lazım olan müddətə saxlayır.** Biz şəxsi məlumatlarınızı bu Məxfilik Siyasətində və xidmətə aid məxfilik bildirişlərimizdə qeyd olunan məqsədləri yerinə yetirmək üçün lazım olan müddət ərzində saxlayacağıq. Saxlama müddətlərini qiymətləndirərkən əvvəlcə toplanan şəxsi məlumatların saxlanılmasının vacib olub-olmadığını diqqətlə araşdırırıq və saxlama tələb olunarsa, şəxsi məlumatların qanunla icazə verilən ən qısa müddətdə saxlanılması üçün çalışırıq.

## Apple-ın Şəxsi Məlumatları Paylaşması

Apple şəxsi məlumatları **Apple-a aid şirkətlər, bizim adımızdan fəaliyyət göstərən** xidmət təminatçıları, **tərəfdaşlarımız, tərtibatçılarımız və naşirlərimiz** və ya sizin göstərişinizlə fəaliyyət göstərən **başqaları ilə paylaşa bilər**. Bundan əlavə, Apple şəxsi məlumatları üçüncü tərəflərlə onların marketinq məqsədləri üçün paylaşmır.

- **Xidmət Provayderləri.** Apple xidmətlərimizdən istifadəniz və müştərilərə məhsulların çatdırılması ilə əlaqəli şəxsi məlumatlar daxil olmaqla, məlumatların işlənməsi və ya saxlanması kimi müəyyən tapşırıqları bizim adımızdan icra etmək üçün xidmət təminatçıları kimi fəaliyyət göstərməsi üçün üçüncü tərəfləri cəlb edə bilər. Apple xidmət provayderləri bu Məxfilik Siyasətinə və təlimatlarımıza uyğun olaraq şəxsi məlumatları idarə etmək öhdəliyi daşıyırlar. Onlar paylaşdığımız şəxsi məlumatlardan öz məqsədləri üçün istifadə edə bilməzlər və sorğumuzu yerinə yetirdikdən sonra şəxsi məlumatları silməli və ya geri qaytarmalıdırlar.
- **Tərəfdaşlar.** Bəzən Apple, xidmətlər və ya digər təklifləri təmin etmək üçün üçüncü tərəflərlə tərəfdaşlıq edə bilər. Məsələn, Apple Card və Apple Cash kimi Apple maliyyə təklifləri Apple və tərəfdaşlarımız tərəfindən təklif olunur. Apple tərəfdaşlarından şəxsi məlumatlarınızı qorumağı tələb edir.
- **Abunəlik Aldığınız Tərtibatçılar və Naşirlər.** App Store-dan və ya Apple News çərçivəsində üçüncü tərəf abunəliyi alsanız, siz, tərtibatçı və ya naşir üçün unikal bir Abunəçi ID-si yaradırıq. Abunəçi ID-si satın aldığınız abunəlik və yaşadığınız ölkə haqqında məlumatları əhatə edən, tərtibatçıya və ya naşirə hesabat vermək üçün istifadə edilə bilər. Müəyyən istehsalçı və ya nəşriyyatla abunəliyinizi ləğv etsəniz, Abunəçi ID-si təkrar abunə olanadək 180 gün ərzində sıfırlanacaq. Bu məlumat abunəçilərinin performansını başa düşmələri üçün tərtibatçılar və ya naşirlərə verilir.
- **Digərləri.** Apple hesabınızı aktivləşdirmək üçün operatorunuzla məlumat paylaşdığımız kimi hallarda, şəxsi məlumatlarınızı sizin göstərişinizlə və ya razılığınızla başqaları ilə paylaşa bilər. Əgər milli təhlükəsizlik, hüquq-mühafizə, ictimai əhəmiyyətli digər məsələlərin məqsədləri üçün məlumatların açıqlaması zəruri və uyğun olduğu qənaətinə gəlmişiksə, biz barənizdə məlumatı bu halda da açıqlaya bilərik. Bununla yanaşı, açıqlamanın şərtlərimizi tətbiq etmək və ya fəaliyyətimizi və ya istifadəçilərimizi qorumaq üçün, ya da yenidən təşkil etmə, birləşmə və ya digər hallar üçün lazımlı olduğunu müəyyən etdikdə, bunun üçün qanuni bir əsas olduğu hallarda sizin haqqınızdakı məlumatları açıqlaya bilərik.

Apple, Nevada və Kaliforniyada "satış" kimi təyin edilən şərtlər daxil olmaqla, şəxsi məlumatlarınızı satmır. Apple həmçinin şəxsi məlumatlarınızı "paylaşmır", çünki bu şərt Kaliforniyada təyin edilmişdir.

## Apple-da Şəxsi Məlumatların Qorunması

Apple olaraq inanırıq ki, güclü məxfilik etibarlı təhlükəsizliyə əsaslanır. Şəxsi məlumatların xüsusiyyətlərini, emal prosesini və təhlükələri nəzərə alaraq şəxsi məlumatlarınızı qorumaq üçün inzibati, texniki və fiziki qoruma vasitələrindən istifadə edirik. Şəxsi məlumatlarınızın təhlükəsizliyini təmin etmək üçün bu qoruma vasitələrini daim inkişaf etdirməyə çalışırıq. Ətraflı məlumat üçün Apple Platforması Təhlükəsizlik bələdçimizə baş çəkin.

## Uşaqlar və Şəxsi Məlumatlar

Apple **13 yaşına çatmayan və ya sizin ərazinizdə qanunla müəyyən edilmiş ekvivalent yaşdan kiçik şəxs olaraq hesab etdiyimiz uşaqların şəxsi məlumatlarını qorumağın vacibliyini başa düşür.** Bu səbəbdən Apple uşaqların şəxsi məlumatlarının təhlükəsizliyini təmin etmək üçün əlavə proseslər və qoruma tədbirlərini həyata keçirir.

Bəzi Apple xidmətlərinə daxil olmaq üçün uşaqların Apple ID-si olmalıdır. Uşaq üçün Apple ID **valideyn** tərəfindən və ya İdarə Olunan Apple ID olacaqsa, **uşağın təhsil müəssisəsi** tərəfindən yaradıla bilər.

- **Valideynlər.** Uşaq hesabı yaratmaq üçün valideynlər Apple-ın uşaqların şəxsi məlumatlarını necə idarə etdiyini təsvir edən Uşaqlar üçün Ailə Məxfiliyi Açıqlamasını nəzərdən keçirməlidirlər. Razı olduğu təqdirdə, valideyn Apple-a doğrulana bilən valideyn razılığı verməlidir.

- **Təhsil Müəssisələri.** Apple School Manager Proqramına qatılan təhsil müəssisələri də tələbələr üçün "İdarə Edilən Apple ID-ləri" adlanan Apple ID-ləri yarada bilər. Bu məktəblərdən Apple Məktəb Meneceri Müqaviləsinə Əlavə A kimi daxil edilən Tələbələr üçün İdarə Olunan Apple İD-ləri Açıqlaması ilə razılaşmaq tələb olunur.

Uşağın şəxsi məlumatlarının müvafiq icazə olmadan toplandığını öyrənsək, ən qısa zamanda silinəcək.

Övladınızın məlumatı üçün məxfilik hüquqlarından istifadə etmək üçün privacy.apple.com ünvanında Apple Verilənlər və Məxfilik səhifəsinə baş çəkin və onun hesabına daxil olun.

## Kukilər və digər texnologiyalar

Apple-ın veb-saytları, onlayn xidmətləri, interaktiv proqramları və reklamları "kukilər" və veb mayaklar kimi digər texnologiyalardan istifadə edə bilər. **Bu texnologiyalar təhlükəsizlik və saxtakarlığın qarşısının alınması məqsədləri daxil olmaqla, bizə istifadəçinin davranışını daha yaxşı anlamağa, insanların veb-saytlarımızın hansı hissələrinə daxil olduğunu bizə bildirməyə və reklamlar, veb-axtarışların effektivliyini təmin etmək və ölçməyimizə kömək edir.**

- **Kommunikasiya Kukiləri.** Bu kukilər səhvləri aşkarlamağımıza kömək etmək də daxil olmaqla, Apple sistemləri üzrə şəbəkə trafikini təmin etmək üçün istifadə olunur.
- **Çox Zəruri Kukilər.** Bu kukilər daxil olduğunuz və ya tələb etdiyiniz müəyyən bir funksiya və ya xidməti təmin etmək üçün tələb olunan kukilər olaraq təyin edilmişdir. Məsələn, onlar veb-saytlarımızı lazımi formatda və dildə göstərməyimizə, əməliyyatlarınızı təsdiqləməyimizə və doğrulamağımıza, apple.com-da onlayn alış-veriş edərkən Çantanızın içindəkiləri qoruyub saxlamağımıza imkan verirlər.
- **Digər Kukilər.** Bu kukilər reklam və veb axtarışların effektivliyini qiymətləndirməyimizə kömək etməklə ziyarətçilərin veb-saytlarımız və onlayn xidmətlərimizlə necə qarşılıqlı əlaqədə olduqlarını başa düşmək üçün istifadə olunur. Apple, həmçinin bu kukiləri axtarış zamanı etdiyiniz seçimləri xatırlamaq üçün istifadə edir və bu yolla sizə fərdi təcrübə təmin edə bilirik.

Apple-ın kukilərdən istifadə etməməsini seçsəniz, istifadəsini dayandırmaq üçün sizə imkan veririk. Kukiləri deaktiv etmək istəyirsinizsə və Safari veb brauzerindən istifadə edirsinizsə, Safari-nin məxfilik ayarlarında "Bütün kukiləri blokla" seçin. Fərqli bir brauzer istifadə edirsinizsə, kukiləri necə deaktiv edəcəyinizi öyrənmək üçün provayderinizlə əlaqə saxlayın. Bütün kukilər deaktiv edilərsə, Apple veb-saytının müəyyən funksiyaları işləməyə bilər.

Kukilərdən əlavə, Apple oxşar məqsədlərə çatmağımıza kömək edən digər texnologiyalardan da istifadə edir.

Apple-ın sizə göndərdiyi bəzi e-poçt mesajlarında sizi Apple veb-saytındakı məzmunla əlaqələndirən "kliklənən URL" təqdim edirik. Bu URL-lərdən birinə kliklədiyiniz zaman onlar saytımızın təyinat səhifəsinə çatmazdan əvvəl ayrıca serverdən keçirlər. Müəyyən mövzulara olan marağı müəyyənləşdirməyimizə və sizinlə səmərəli ünsiyyət qurub-qurmadığımızı ölçməyimizə kömək etmək üçün bu kliklməni izləyirik. Bu şəkildə izlənməməyi seçsəniz, e-poçt mesajlarındakı qrafik və ya mətn keçidlərini klikləməməlisiniz.

**Apple ümumiyyətlə bu kukilərdən və bənzər texnologiyalardan istifadə edərək topladığımız məlumatları şəxsi olmayan məlumatlar kimi qəbul edir.** Lakin İnternet Protokol (IP) ünvanları və ya oxşar identifikatorlar yerli qanunlar tərəfindən şəxsi məlumat hesab olunarsa, həmin ərazilərdə biz də bu identifikatorları şəxsi məlumat hesab edirik. Bundan əlavə, Apple bəzən bu texnologiyalardan toplanan şəxsi olmayan məlumatları Apple-ın saxladığı digər şəxsi məlumatlarla birləşdirir. Məlumatları bu şəkildə birləşdirdiyimizdə, bu Məxfilik Siyasətinə əsasən birləşdirilmiş məlumatları şəxsi məlumatlar kimi qəbul edirik.

Apple-ın reklam platforması tərəfindən təqdim olunan reklamlar yerləşdiyiniz məkandan asılı olaraq App Store, Apple News, Stocks və Apple TV proqramında görünə bilər. Apple-ın reklam platforması sizi izləmir, yəni o, proqramlarımızdan toplanmış istifadəçi və ya cihaz məlumatlarını hədəflənmiş reklam və ya reklam ölçmə məqsədləri üçün üçüncü tərəflərdən toplanmış istifadəçi və ya cihaz məlumatları ilə əlaqələndirmir və istifadəçi və ya cihaz məlumatlarını məlumat brokerləri ilə paylaşmır.

Bu proqramlarda Apple reklam platformasından maraqlarınıza uyğun reklamlar almaq istəmirsinizsə, istifadə etdiyiniz cihazdan asılı olmayaraq, Apple ID-nizi bu cür reklamlardan siləcək Fərdiləşdirilmiş Reklamları deaktiv edə bilərsiniz. iOS, iPadOS və ya visionOS cihazınızda Parametrlər > Məxfilik və Təhlükəsizlik > Apple Reklamı bölməsinə keçərək və Fərdiləşdirilmiş Reklamları söndürmək seçiminə toxunaraq Fərdiləşdirilmiş Reklamları deaktiv edə bilərsiniz. Mac cihazında Sistem Parametrləri > Məxfilik və Təhlükəsizlik > Apple Reklamı bölməsinə keçərək Fərdiləşdirilmiş Reklamlar seçimini ləğv etməklə Fərdiləşdirilmiş Reklamları deaktiv edə bilərsiniz. Hələ də axtarış sorğunuz və ya oxuduğunuz kanal kimi kontekstə əsasən App Store, Apple News və ya Stocks-da reklamlar görə bilərsiniz. Proqramlara İzləmə Sorğusuna İcazə Ver seçimini deaktiv etsəniz, üçüncü tərəf proqramlar sizi digər şirkətlərə məxsus proqramlar və veb-saytlarda izləmək üçün cihazınızda əməliyyat sistemi tərəfindən tətbiq edilən qeyri-şəxsi identifikator olan Reklam İdentifikatorundan istifadə tələb edə bilməz.

Apple tərəfindən təqdim edilən reklam və məxfilik haqqında ətraflı məlumat üçün apple.com/legal/privacy/data/en/apple-advertising ünvanına baş çəkin.

## Şəxsi Məlumatların Ölkələr Arasında Ötürülməsi

Apple məhsulları və təklifləri sizi dünya ilə əlaqələndirir. Bunu mümkün etmək üçün **məhsul və xidmətlərimizdən istifadənizlə əlaqədar olaraq bu Məxfilik Siyasətində təsvir olunanlar kimi emal fəaliyyətlərini yerinə yetirmək üçün şəxsi məlumatlarınız Apple-a aid şirkətlər də daxil olmaqla**, dünya üzrə qurumlara ötürülə və ya onlar tərəfindən giriş edilə bilər. Apple məlumatlarınızın harada olmasından asılı olmayaraq qorunmasını təmin etmək üçün ölkələr arasında şəxsi məlumatların ötürülməsinə dair qanunlara əməl edir.

**Şəxsi məlumatlarınızı idarə edən Apple təşkilatı yaşadığınız yerə görə dəyişə bilər.** Məsələn, Apple Store məlumatı hər bir ölkədə fərdi pərakəndə satış müəssisələri tərəfindən idarə olunur və Apple Media Xidmətləri ilə bağlı şəxsi məlumatlar xidmət şərtlərində əks olunduğu kimi müxtəlif Apple müəssisələri tərəfindən idarə oluna bilər. ABŞ-da yaşamırsınızsa, şəxsi məlumatlarınız əraziniz üzrə şəxsi məlumatları idarə edən Apple təşkilatı adından Apple Inc. Və digər Apple-a bağlı şirkətlər tərəfindən emal edilə bilər. Məsələn, Apple Maps-i yaxşılaşdırmaq və Look Around funksiyasını dəstəkləmək üçün dünyada Apple tərəfindən toplanan Görüntülər və əlaqəli məlumatlar Kaliforniyadakı Apple Inc. şirkətinə ötürülür.

Avropa İqtisadi Bölgəsi, Birləşmiş Krallıq və İsveçrədəki şəxslərlə əlaqəli şəxsi məlumatlar İrlandiyada yerləşən Apple Distribution International Limited tərəfindən idarə olunur. Apple-ın Avropa İqtisadi Zonasında, Birləşmiş Krallıq və İsveçrədə toplanmış şəxsi məlumatların beynəlxalq miqyasda ötürülməsi Standart Müqavilə Müddəalarıilə tənzimlənir. Əgər sualınız varsa və ya Apple-ın Standart Müqavilə Müddəalarının surətini almaq istəyirsinizsə, apple.com/legal/privacy/contact bölməsinə keçərək bizimlə əlaqə saxlaya bilərsiniz.

Dünya üzrə Apple və ya Apple-a aid şirkət tərəfindən toplanan şəxsi məlumatlar ümumiyyətlə ABŞ-da Apple Inc. tərəfindən saxlanılır. Şəxsi məlumatlarınızın harada saxlanmasından asılı olmayaraq, Apple eyni yüksək səviyyədə qorunma və mühafizə tədbirlərini həyata keçirir. Apple tərəfindən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC) ölkələrində toplanmış şəxsi məlumatların beynəlxalq miqyasda ötürülməsi şəxsi məlumatların ötürülməsi üzrə APEC Trans-Sərhəd Məxfilik Qaydaları (CBPR) Sistemi və Emalçılar üçün Məxfiliyin Tanınması (PRP) Sisteminə əsasən həyata keçirilir. Bu Məxfilik Siyasətinin qüvvədə olduğu tarixdə APEC CBPR sistemlərində iştirak edən ölkələr ABŞ, Avstraliya, Kanada, Çin Taypeyi, Yaponiya, Meksika, Filippin, Koreya Respublikası və Sinqapurdur. APEC CBPR və ya PRP təsdiqetmələri barədə sualınız və ya həll edilməmiş narahatlığınız varsa üçüncü tərəf mübahisə həlli təminatçımız ilə əlaqə saxlayın.

Çin Xalq Respublikasında fiziki şəxslərə aid şəxsi məlumatlar Apple tərəfindən Çin Xalq Respublikasından kənar ölkələrdə, məsələn, ABŞ-da Apple Inc. və ya İrlandiya Respublikasında Apple Distribution International Limited tərəfindən emal oluna bilər. Bu baş verdikdə, Şəxsi Məlumatların Qorunması Qanunu da daxil olmaqla yerli qanunlara uyğun olaraq həyata keçiriləcəkdir. Bu Məxfilik Siyasətində müəyyən edilmiş emal məqsədləri üçün Apple bu cür şəxsi məlumatları üçüncü tərəf xidmət təminatçılarına da ötürə bilər, onlar isə öz növbəsində məlumatları Çin Xalq Respublikasından kənarda saxlaya və ya ötürə bilərlər. Ətraflı məlumat üçün Kontinental Çin Məxfilik Açıqlamaları bölməsinə baş çəkin.

## Sizin məxfiliyinizə dair şirkətdaxili öhdəliyimiz

Şəxsi məlumatlarınızın təhlükəsizliyinə əmin olmaq üçün biz məxfilik və təhlükəsizliklə bağlı qaydalarımızı Apple əməkdaşlarına təmin edir və şirkət daxilində məxfilik qorunmasını ciddi şəkildə həyata keçiririk.

## Məxfiliyə dair suallar

**Apple-ın Məxfilik Siyasəti və ya məxfilik təcrübələri, o cümlədən üçüncü tərəf xidmət təminatçısının bizim adımızdan nə zaman çıxış etməsi ilə bağlı suallarınız varsa və ya Məlumatların Mühafizəsi Əməkdaşımız ilə əlaqə saxlamaq istəyirsinizsə, apple.com/legal/privacy/contact ünvanına keçərək bizimlə əlaqə saxlaya və ya ölkə və ya regionunuz üzrə Apple Dəstək nömrəsinə zəng edə bilərsiniz.** Bizə məxfilik barədə şikayəti necə təqdim edəcəyiniz barədə suallar verə bilərsiniz və biz kömək etməyə çalışacağıq.

Apple məxfiliklə bağlı suallarınıza ciddi yanaşır. Xüsusi bir qrup giriş və ya endirmə sorğusuna cavab olaraq alınan sorğular da daxil olmaqla, sualınıza və ya narahatlığınıza ən yaxşı şəkildə necə cavab verməyi təyin etmək üçün sorğunuzu nəzərdən keçirir. Əksər hallarda, bütün substantiv əlaqələr yeddi gün ərzində cavab alır. Digər hallarda, əlavə məlumat tələb edə bilər və ya cavab vermək üçün daha çox vaxta ehtiyacımız olduğunu bildirə bilərik.

Şikayətinizdə məxfilik məsələlərinin həllində düzəliş edilə biləcəyi göstərilirsə, ilk fürsətdə belə bir yeniləmə üçün addımlar atacağıq. Məxfilik məsələsi sizə və ya başqa bir şəxsə mənfi təsir göstərməsi ilə nəticələnsə, bu məsələni sizinlə və ya digər şəxslə həll etmək üçün addımlar atacağıq.

İstənilən vaxt, o cümlədən Apple-ın cavabından razı qalmadığınız halda şikayətinizi müvafiq tənzimləyiciyə göndərə bilərsiniz. İstəsəniz, biz sizin hallarınıza tətbiq oluna biləcək müvafiq şikayət yerləri barədə məlumatı sizə təqdim etməyə çalışacağıq.

Bu Məxfilik Siyasətində əhəmiyyətli bir dəyişiklik olduqda, ən azı bir həftə əvvəl bu veb-saytımızda bir bildiriş yerləşdirəcəyik və məlumatlarınız olduğu təqdirdə birbaşa sizinlə əlaqə quracağıq.

APEC CBPR sertifikatımıza baxın >

APEC PRP sertifikatımıza baxın >